# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№039** **17 mart 2020-ci il**

**Çağırış yaşlı vətəndaşların həqiqi hərbi xidmətə çağırılması haqqında**

"Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci ilin aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2020-ci il tarixli 1866 nömrəli Sərəncamı və "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq

**QƏRARA ALIRAM:**

1. Qobustan rayonunda olan 1985-2001-ci illərdə anadan olmuş gənclərin 2020-ci ilin aprelinn 1-dən 30-dək həqiqi hərbi xidmətə göndərilməsini təmin etmək məqsədi ilə aşağıdakı tərkibdə rayon komissiyası yaradılsın:

| | |
|---|---|
| İ.Əhmədov | Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Qobustan rayon bölməsinin rəisi, çağırış **komissiyasının sədri** |
| A.Şikarov | Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı **çağırış komissiyası sədrinin müavini** |

**ÜZVLƏRİ:**

| | |
|---|---|
| D.Rəcəbov | Qobustan RPŞ-nin rəis müavini-komissiyanın üzvü |
| Q.Kərimov | Hərbi həkim komissiyasının baş həkimi |
| Q.Əkbərov | Qobustan Gənclər və İdman İdarəsinin müdiri-komissiyanın üzvü |

| | |
|---|---|
| H.Şabili | İsmayıllı Regional Mədəniyyət İdarəsinin Qobustan rayonu üzrə nümayəndəsi |
| K.Rəhimov | Rayon Təhsil şöbəsinin metodisti |
| K.Əzizova | Komissiyanın katibi |

2. Çağırışçıların tibbi müayinədən keçməsi üçün Rayon Mərkəzi Xəstəxanasının həkimlərindən ibarət komissiya aşağıdakı tərkibdə təsdiq edilsin:

| | |
|---|---|
| R. Üzeyirov | Terapevt |
| C.Əliyev | Psixiatr (xarici əvəzçiliklə) |
| Ə.Həsənzadə | Cərrah (xarici əvəzçiliklə) |
| A.Camalov | Otorinolorinqoloq (xarici əvəzçiliklə) |
| P.Rəhimov | Stamotoloq |
| E.Hüseyn | Oftolmoloq |
| V.Rəhimli | Dermatovenerolog |
| A.Cavadova | Nevrapotoloq |
| S.Kərimova | Psixoloq |
| X.Abıyev | Feldşer |
| A.Absəmədov | Ftiziatr |

3. Tapşırılsın komissiyaya vətəndaşların həqiqi hərbi xidmətə göndərilməsini təmin etmək məqsədi ilə operativ tədbirləri həyata keçirsinlər.

4. Rayon İcra Hakimiyyəti başçısının şəhər və kəndləri üzrə nümayəndələrinə tapşırılsın ki, çağırış yaşlı gənclərin çağırış məntəqəsinə göndərilməsini təmin etsinlər.

5. Rayon Polis şöbəsinin rəisi E.Babayevə tapşırılsın ki, həqiqi hərbi xidmətdən yayınan şəxslər barədə müvafiq inzibati tədbirlər görsün.

6. Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Qobustan Rayon Bölməsinin rəisi İ.Əhmədova tapşırılsın ki, komissiyanın fəaliyyəti üçün lazımı şərait yaratsın.

7. Rayon Mədəniyyət və Turizm Şöbəsinə tapşırılsın ki, çağırış məntəqəsində çağırışçıların təntənəli yola salındığı günlərdə mədəni kütləvi tədbirlər keçirsin.

8. Rayon Mərkəzi Xəstəxanasının baş həkimi E.Hüseynə tapşırılsın ki, həkim mütəxəssislərin komissiyada iştirakı üçün lazımi şərait yaratsın.

9. Qobustan rayonu ərazisində yerləşən bütün müəssisə və təşkilat rəhbərləri vətəndaşların həqiqi hərbi xidmətə çağırışını keçirmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Qobustan rayon Bölməsinə nəqliyyat və texniki işçilər ayırsınlar.

10. Tapşırılsın Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin Qobustan Rayon Bölməsinin rəisi İ.Əhmədov vaxtaşırı görülən işlər barədə Rayon İcra hakimiyyəti başçısına məlumat versin.

**Qobustan rayonu İcra hakimiyyətinin başçısı:** **A.M.Məmmədov**